***Ağla, qərənfil, ağla...***

**Musiqisi: Rəşid Şəfəq.**

**Sözləri : Məmməd Aslan.**

1. Qərənfil - şəhid qanı:
   Ağla, qərənfil, ağla!
   Ağla, inlət meydanı,
   Ağla, qərənfil, ağla!
   Nəqərat:
   Ağla, ürək boşalsın,
   Ağla, dağlar yumşalsın,
   Ağla, qərənfil, ağla!

2. Bəxti asılan qıza,
   Hünəri aslan qıza,
   Toyu yas olan qıza-
   Ağla, qərənfil, ağla!
   Nəqərat:
3. Bu təklənmiş şirlərə,
   Bu arxasız ərlərə,
   Bu talesiz nərlərə-
   Ağla, qərənfil, ağla!
   Nəqərat:
   Bu günahsız qanlara,
   Bu müqəddəs canlara,
   Bu nakam cavanlara –
   Ağla, qərənfil, ağla!
   Nəqərat:
   Bu qara yazılara,
   Bu körpə quzulara,
   Quruyan arzulara-
   Ağla, qərənfil, ağla!
   Nəqərat:

Ağla, qərənfil, ağla : mahnı // Mədəniyyət. - 1991. – 20 Yanvar. – S. 3.